UOT 32:93/94; UOT 327

**NƏRGİZ NAĞIYEVA**
*siyasi elmlər üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universitetinin dosenti*
**nargiz_nagiyeva@mail.ru**
ORCİD İD: 0009-0001-1205-5864

# NEOKOLONİALİZMƏ QARŞI ETİRAZLAR

DOI: https://doi.org/10.36719/2708-065X/106/174-177

*Müasir dövrdə müstəmləkəçiliyin sona çatdığı deyilsə də, bu gün müstəmləkəçiliyin mövcud olmadığını söyləmək olmaz. Tarix boyu davamlı olaraq dəyişən müstəmləkəçilik siyasətləri bu gün də müxtəlif coğrafi bölgələrdə müxtəlif formalarda və fərqli adlar altında davam etməkdədir. Hər iki dünya müharibəsi müstəmləkəçiliyin müəyyən qədər azalmasına səbəb olsa da, Qərbin müstəmləkəçilik siyasəti bu gün də davam edir. Nəticə etibarı ilə deyə bilərik ki, müstəmləkəçilik forması dəyişsə də, sona çatmayıb, məzmun isə dəyişməz olaraq qalır. Hərbi güc yerini daha böyük iqtisadi və siyasi asılılığa verdi. "Postkolonializm" anlayışı "yeni müstəmləkəçilik" anlayışı ilə əvəz edilmişdir.*

*Açar sözlər*: neokolonializm, postkolonializm, imperializm, kolonializm, müstəmləkəçilik.

***Giriş.*** Müasir dövrdə müstəmləkəçiliyin başa çatdığı deyilsə də, bu gün müstəmləkəçiliyin mövcud olmaması iddia edilə bilməz. Tarix boyu, daim şəkil dəyişdirərək davam edən müstəmləkəçilik siyasəti bu gün də fərqli coğrafiyalarda fərqli şəkillərdə və fərqli adlar altında davam etməkdədir.

Hər iki dünya müharibəsi müstəmləkəçiliyin bir qədər geriləməsinə səbəb olsa da, Qərbin müstəmləkəçilik siyasəti hələ də öz mövcudluğunu qoruyub saxlamaqdadır. Müstəmləkələrdə baş qaldıran milliyətçilik (milli özünüdərk) hərəkatları müəyyən mənada müstəqilliklə nəticələnsə də, bu siyasi müstəqilliyin çox da önəmli olmadığı, imperialist dövlətlərin "yeni müstəmləkəçilik" yöntəmləri ilə müstəmləkəçilik münasibətlərini fərqli metod və miqyaslarla davam etdirdiyini nümayiş etdirdi [1, 55].

***Dekolonizasiya.*** İkinci Dünya müharibəsi dekolonizasiya prosesində mühüm dönüş nöqtəsidir. İlk dəfə 1952-ci ildə Henri Labouret tərəfindən istifadə edilən dekolonizasiya termini müstəmləkə rejimi altında olan insanların müstəqilliyə çatması prosesini ifadə edir [2, 2].

Müharibədən sonra Sovet İttifaqının müstəmləkəçilik əleyhinə münasibəti müstəmləkələrində kommunizmin yayılmasından narahat olan Qərb ölkələrini müstəmləkələrini tərk etmək məcburiyyəti ilə müqayisə edərək, dekolonizasiya prosesinin sürətini artırmaqda təsirli oldu. Bundan əlavə, Asiya dövləti olaraq Yaponiyanın İkinci Dünya müharibəsində Fransa, Böyük Britaniya və Hollandiya kimi imperialist gücləri məğlub etməsi bu güclərin öz müstəmləkələrindəki nüfuzunu sarsıtdı və nəticədə Hindistan, Birma, Qana, Qana, Myanma, Tunis, Liviya və digər müstəmləkələrdə müstəqillik tələb edildi [5, 217].

Müstəmləkə gücləri İkinci Dünya müharibəsinin sonunda zəifləmiş, iqtisadi cəhətdən zəifləmiş və əvvəlki sabitliyini itirərək yerlərini dəyişən dünya nizamının yeni super gücləri olan Sovet İttifaqı və ABŞ-a buraxarkən, 1947-ci ildə Hindistan və Pakistanın müstəqilliyinin qazanması ilə Asiyada da öz güclərini itirməyə başladılar [3, 226].

Burjuaziyanın dəstəklədiyi müstəqillik kampaniyaları Hindistan, Pakistan, Qana və Şri-Lanka kimi burjua sinfinin ələ keçirməyə hazır olduğu ölkələrdə təsirli olduğu halda, az inkişaf etmiş koloniyalarda daha mübariz yerli müqavimət tələb olunurdu. Yerli anti-müstəmləkə hərəkatlarına ən çox müqavimət göstərən Fransa və Portuqaliya kimi müstəmləkəçi dövlətlər bəzi müstəmləkələrində (Mozambik və Vyetnam kimi) milli azadlıq cəbhələrinin silahlı müqaviməti ilə üzləşdilər. Silahlı azadlıq hərəkatlarının konstitusiya yolları ilə müstəqillik tələbinin ödənilmədiyi və ya müxtəlif formalarda muxtariyyət əldə etmiş müstəmləkələr üzərində siyasi nəzarəti bərpa etməyə cəhdlər edildiyi hallarda ortaya çıxdığı görünür. Vyetnam, Keniya, Kamerun, Qvineya-Bisau, Zimbabve, Eritreya, Anqola və Mozambik bu cür mübarizələrin ortaya çıxdığı koloniyalara misaldır [5, 217-219].

1956-cı ildə Sudan, Tunis və Mərakeşin müstəqillik əldə etməsi ilə başlayan proses 1957-ci ildə Qana və 1958-ci ildə Qvineyanın müstəqillik qazanması ilə daha da sürətlənmiş və 1960-cı ildə Fransa, Böyük Britaniya və Belçikanın hakimiyyəti altında olan 17 koloniyanın bir ildə müstəqillik qazanması ilə pik həddinə çatmışdır [3, 224, 230].

1783-cü ildə İngiltərənin on üç koloniyasının müstəqilliyini tanıması ilə başlayan və 1983-cü ildə Sent Kitts və Nevis Federasiyasının müstəqilliyinə qədər davam edən dekolonizasiya prosesində 165 koloniya ya müstəqil oldu, ya da mövcud suveren dövlətlərə qoşulmaq iradəsini nümayiş etdirdi [6, 429].

Bu gün Cəbəllütariq, Folklend/Malvin adaları, Qrenlandiya, Hollandiya Antilləri, Fransız Qvianası, Puerto Riko, Samoa və Virgin adaları, Kanar, Seuta və Melilla adaları kimi nümunələrdən başqa, onların asılılığı müxtəlif adlar altında davam edir [5, 4].

Müstəmləkəçiliyin dekolonizasiya prosesi ilə rəsmi sonu onun həqiqətən sona çatıb-çatmaması ilə bağlı yeni müzakirələrə səbəb oldu. Bu müzakirələr arasında ən çox diqqət çəkənlərdən biri müstəmləkəçiliyin yeni versiya ilə əvəz olunduğu iddiası üzərində dayanır.

Qananın müstəqillik mübarizəsində önəmli bir figur olan və bu ölkənin 1957-ci ildə müstəqillik qazanmasından sonra ilk dövlət başçısı olan Kvame Nkrumah, siyasi müstəqilliyin görüntü olduğuna ve iqtisadi müstəqilliklə tamamlanmadığına dair təcrübələrindən çıxış edərək "*İmperializmin sonuncu mərhələsi yeni müstəmləkəçilik*" adlı bir əsər yazmış və bu əsərində neokolonializm nəzəriyyəsini təqdim etmiştir [4]. Nkrumahın nəzəriyyəsinə görə Afrika zəngin qaynaqlara sahib olsa da, bu qaynaqlar müstəqillik sonrasında da qitəyə qətiyyən zənginlik gətirmir, əksinə qitənin yoxsullaşması üçün çalışan dövlət və müəyyən qrupları zənginləşdirməyə davam edirdi. Kolonializm ortadan qalxsa da, onun yerini imperializmin son məhsulu olan neokolonializm almışdır. Buna görə də guya müstəqilliyini əldə edən həmin müstəmləkələr yalnız formal olaraq müstəqildirlər. Bu, zahirən müstəqillik qazanmış müstəmləkələrin iqtisadi sistemləri və siyasi fəaliyyətləri müxtəlif yollarla xaricdən idarə edilirdi [5, 60-62]. Nkrumaha görə, neokolonializmdə müstəmləkəçi dövlətlər xarici sərmayə ilə, dünyanın daha az inkişaf etmiş bölgələrini inkişaf etdirmək əvəzinə əksinə onları istismar etməkdədirlər. Yatırımlarla yoxsul və zəngin ölkələr arasındakı uçurum azaldılmaq əvəzinə artırılmaqdadır, yardımlar da inkişaf etməkdə olan ölkələrə yararsız olub neokolonial nəzarəti öz əllərində tutanlara gəlir gətirməkdədir. Nkrumaha görə neokolonializm geniş kolonial bölgələrin özləri müstəqilliklərini qoruyub saxlaya bilməyəcəyinə görə keçmiş kolonial güclərə həm daxili və xarici təhlükəsizilik, həm də iqtisadi sistem baxımından bağlı qalmağa davam edərək kiçik müstəqil dövlətlərə çevrilməsinə əsaslanır. Beləliklə, neokolonial nəzarətdə olan ölkələrə edilən yatırım və yardımlar, bu ölkələrin inkişafına heç bir müsbət təsir göstərmir, hətta onlara zərər verməkdədir.

Kolonializm siyasətinin fəsadlarını müxtəlif aspektlərdən dəyərləndirmək mümkündür. Mənfi nəticələr yalnız asılı ölkələrin suverenliyinin məhdudlaşmasında, yeraltı və yerüstü sərvətlərinin talanmasında müşahidə edilmir. Fundamental insan hüquqlarının tapdalanması müasir dövr müstəmləkəçiliyinin ən ağır təzahürüdür. Təzad bundan ibarətdir ki, müstəmləkəçi Qərb ölkələri demokratiyanı və insan hüquqlarının qorunmasını özlərinin fundamental prinsipləri kimi bəyan ediblər. Ancaq həmin ölkələr, Afrikada, Yaxın Şərqdə, Latın Amerikasında neokolonializmi davam etdirməklə insan hüquq və azadlıqlarına, ümumiyyətlə, məhəl qoymurlar.

Neokolonializm siyasətində Fransa ən pis nümunə ortaya qoyur. Hazırda 13 dənizaşırı ərazini müstəmləkəsi kimi idarə edən, həmçinin dünyanın müxtəlif qitələrində yerləşən keçmiş müstəmləkələrinin daxili işlərinə qarışan Fransa beynəlxalq təşkilatların və müstəqillik uğrunda mübarizə aparan xalqların uzun illərdir tələblərinə baxmayaraq, neokolonializm siyasətini davam etdirir. Bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilib. Fransanın fəal surətdə məşğul olduğu qul ticarəti insanlığın ən utancverici səhifələrindən biridir. Milyonlarla afrikalı bu ölkənin qul siyasətinin qurbanı olub.

Bir sözlə, özünü demokratiyanın beşiyi hesab etməsinə baxmayaraq, neokolonializm siyasəti həyata keçirən Fransa kimi ölkələr uzun illərdir beynəlxalq hüququn hamılıqla qəbul edilmiş ümumbəşəri prinsiplərinə hörmətsizlik nümayiş etdirərək insan hüquqlarını kobud şəkildə pozmaqda, xalqlar arasında barışın əldə olunmasına, sülh və əmin-amanlıq mühitinin yaranmasına mane olmaqda davam

edir. Müasir dövrdə hələ də dünyada müstəmləkə siyasəti ilə məşğul olan ölkələrin mövcud olması təəssüf doğurur.

20 oktyabr 2023-cü ildə Bakıda "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda keçirilən beynəlxalq konfransın açılışında Prezident İlham Əliyev qeyd etmişdir ki, Azərbaycan XXI əsrdə kolonializmin davam etməsindən və kolonializmin yeni təzahürləri meyillərinin artmasından olduqca narahatdır. Bandunq Konfransından 70 ilə yaxın dövrün keçməsinə rəğmən kolonializmi hələ də davam etdirən ölkələr var. Belə ölkələrdən biri və birincisi Fransadır [7].

Ümumiyyətlə, bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilmişdir. Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean, Latın Amerikasında onlarla ölkəni işğal edən, sərvətlərini talan edən, xalqlarını uzun illər əsarətdə saxlayan Fransa həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törətmişdir, fransız silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoymuşdur.

XX əsrdə 30 il ərzində Fransız Polineziyasında Fransa tərəfindən 200-ə yaxın, 6 il ərzində isə Əlcəzairdə 17 nüvə sınağı həyata keçirilmişdir. Həmin nüvə sınaqlarının ağır fəsadları Polineziya və Əlcəzair xalqları tərəfindən bu gün də yaşanmaqdadır. Bir çox təşkilatın etdiyi çağırışlara uyğun olaraq nüvə sınaqlarının vurduğu ziyan qiymətləndirilməlidir və Fransa tərəfindən müvafiq təzminatlar ödənilməlidir.

Əlcəzairin 132 il davam edən işğalı dövründə 1,5 milyondan artıq insan Fransa dövləti tərəfindən qətlə yetirilmiş, bu səbəbdən ölkə "1,5 milyon şəhid ölkəsi" adlandırılır. Fransız ordusunun törətdiyi qətliamların miqyası və coğrafiyası o qədər genişdir ki, sadalamaqla bitirmək çətindir. Mərakeş, Tunis, Mali, Cibuti, Nigeriya, Çad, Seneqal, Vyetnam, Qəmər adaları, Haiti və digər ölkələr bu gün də bu işğalın ağır fəsadlarını hiss edir.

Qeyd edək ki, bir müddətdir ki, Sakit Okeanda yerləşən Yeni Kaledoniyada Fransa Hökumətinin "seçki islahatı"na qarşı etiraz aksiyaları başlayıb. Baş verən iğtişaşlara cavab olaraq, Fransa adaya ordu yeridib. Bunun nəticəsində artıq 10-a yaxın qurban, 200-ə yaxın yaralı var. Polis 200-dən yuxarı etirazçını saxlayıb. Fransa Hökuməti ordunun Yeni Kaledoniyada törətdiyi vəhşilikləri dünya ictimaiyyətindən gizlətmək üçün TikTok sosial şəbəkəsinə çıxışı bloklayıb. Yeni Kaledoniya Fransa hökümətinin onları informasiya blokadasında saxlamaq üçün interneti tamamilə kəsə biləcəyindən və ordunun həmin an adada törədə biləcəyi vəhşiliklərdən narahatdır.

Yeni Kaledoniyanın əhalisi təxminən 300 min nəfərdir. Bunun da təxminən 40%-ni və ya 112 min nəfəri yerli kanak xalqı təşkil edir.

Hazırkı iğtişaşlar 1980-ci illərdən bəri ən kütləvisidir. Daha sonra etirazlar dalğası 1998-ci ildə Numea Sazişinin bağlanması ilə söndürüldü. Bu sazişə əsasən, Fransa adalara daha çox siyasi muxtariyyət verməyə və yerli sakinlərə seçkilərdə iştiraka icazə verməyə razılaşdı.

Lakin bu sazişdən sonra mərhələli şəkildə adalara 40 mindən yuxarı Fransız vətəndaşı köçürülüb. 15 mayda isə Fransa parlamenti adada 10 ildən çox yaşayan Fransa vətəndaşlarına yerli seçkilərdə səsvermə hüququnun verilməsinə səs verib. Bu isə yerli əhalinin-kanakların seçkilərdəki səs payını daha da azaltmaq və onların müstəqillik arzularını həmişəlik boğmaq kimi dəyərləndirilir. Nümayişçilər Fransa hökumətinin yerli əhalinin fikirlərini nəzərə almadan qanunvericilikdə dəfələrlə dəyişiklik etdiyini vurğulayaraq, bunu yolverilməz hesab edirlər. Onlar həmçinin bu dəyişiliklərin Numea sazişinə də zidd olduğunu bildirirlər. Bu dövlət 1853-cü ildən Fransanın işğalında yaşayır. Adalarda böyük nikel yataqları aşkar edilib. Bu yataqlar öz həcminə görə, dünyada üçüncü yerdədir.

Fransa təkcə keçmiş və indiki müstəmləkələrində deyil, eyni zamanda bizim regionumuzda – Cənubi Qafqazda stabilliyi pozur, separatizm meyllərini və separatçıları dəstəkləyir. Ermənistanı silahlandırmaqla militarist siyasət həyata keçirir, revanşist qüvvələri təşviq edir, regionumuzda yeni müharibələrin başlaması üçün zəmin hazırlayır. Eyni zamanda Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusundan öz qərəzli, qeyri-obyektiv siyasətini yürütmək üçün sui-istifadə edir, müxtəlif regionlarda geosiyasi intriqalarla məşğul olur, Qərb təçkilatlarını digər dövlətlərə qarşı təzyiq vasitəsi kimi istifadə etməyə cəhd edir [7].

***Nəticə*** olaraq demək olar ki, müstəmləkəçilik sona çatmamış, forması dəyişsə də məzmunu eyni qalmışdır. Hərbi gücün yerini daha çox iqtisadi və siyasi asılılıq almışdır. "Post-kolonializm" anlayı-

şının yerinə "yeni müstəmləkəçilik" keçmişdir. Bu gün müstəmləkəçilik başqa formalarda davam etməkdədir.

ƏDƏBİYYAT

1. Atasoy Fahri. Küreselleşme ve Milliyetçilik. Ötüken Neşriyat. İstanbul, 2018, -s.s.350
2. Francisco José Muñoz García “La descolonización de Asia y África. El movimiento de los países no alineados” (Sección Temario de oposiciones de Geografía e Historia), Clío 37, 2011. - http://clio.rediris.es/n37/oposiciones2/tema68.pdf [18.06.2024].
3. Jane Allman, “Between the Present and History: African Nationalism and Decolonization”, The Oxford Handbook of Modern African History, Ed. John Parker, Richard Reid, New York, Oxford University Press, 2013, -559 p.
4. Kwame Nkrumah. Neocolonialism: The Last Stage of İmperialism, London & Edinburgh, Thomas Nelson & Sons, 1965, -280 p.
5. Young Robert J. Postkolonyalizm. Tarihsel bir giriş. Matbu Kitap. İstanbul. 2018, -652 p.
6. Strang David “Global Patterns of Decolonization, 1500-1987”, International Studies Quarterly, No. 35, 1991, pp. 429–454.
7. “Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik” mövzusunda beynəlxalq konfransın iştirakçılarına. https://president.az/az/articles/view/61823

**НАРГИЗ НАГИЕВА**
*Доцент Бакинского Государственного Университета,*
*доктор философии по политическим наукам*

## ПРОТЕСТЫ ПРОТИВ НЕОКОЛОНИАЛИЗМА

Хотя говорят, что колониализм закончился в наше время, нельзя утверждать, что колониализм не существует сегодня. На протяжении всей истории политика колониализма, которая постоянно менялась, продолжается и сегодня в разных формах и под разными названиями в разных географических регионах. Хотя обе мировые войны привели к некоторому упадку колониализма, колониальная политика Запада до сих пор сохраняет свое существование. В результате можно сказать, что колониализм не закончился, хотя его форма изменилась, но содержание осталось прежним. Военная мощь сменилась большей экономической и политической зависимостью. Понятие «постколониализм» было заменено «новым колониализмом».

*Ключевые слова:* неоколониализм, постколониализм, империализм, колониализм, колониализм.

**NARGIZ NAGIYEVA**
*Associate professor of Baku State University,*
*Doctor of Philosophy in Political Science*

## PROTESTS AGAINST NEO-COLONIALISM

Although colonialism is said to have ended in modern times, it cannot be argued that colonialism does not exist today. Throughout history, the policy of colonialism, which has been constantly changing, continues today in different forms and under different names in different geographies. Although both world wars led to a slight decline in colonialism, the colonial policy of the West still maintains its existence. As a result, it can be said that colonialism has not ended, although its form has changed, its content has remained the same. Military power has been replaced by more economic and political dependence. The concept of "post-colonialism" has been replaced by "new colonialism".

*Keywords:* neocolonialism, postcolonialism, imperialism, colonialism, colonialism.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 iyun 2024-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.*
*Rəyçilər: t.ü.f.d. Qurban Məmmədov, s.e.d. Adil Mirabdullayev.*